ADB News Release
AZERBAIJAN RESIDENT MISSION, ASIAN DEVELOPMENT BANK

96 Nizami Street, 4th Floor
Landmark Building
Baku AZ1000, Azerbaijan
Tel + 994 12 496 58 00

# ŞƏRQ- QƏRB NƏQLİYYAT DƏHLİZİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ LAYİHƏSİ İMZALANDI

**BAKI, AZƏRBAYCAN (1 iyun 2006)** – Asiya İnkişaf Bankı (AİB) və Azərbaycan Hökuməti bügun Şərq-Qərb Nəqliyyat Dəhlizinin Təkmilləşdirilməsi layihəsini maliyyələşdirmək üçün ümumi dəyəri 52 mln ABŞ dolları məbləğində olan iki kredit müqaviləsi bağlamışlar.

Bu layihə çərçivəsində Yevlax-Gəncə və Qazax-Gürcüstan sərhəddi bölmələrində iki zolaqlı asfalt döşəməli yolun 127 km-i və 65 km uzunluğunda daxili yol təkmilləşdiriləcəkdir. Bu layihə həmçinin ölkədəki təsisatların gücləndirilməsi yolu ilə yol sektorunda qanun vericiliklə bağlı islahatları və idarəetmənin yaxşılaşdırılmasını dəstəkləyəcəkdir.

«Hökümət AİB-nin bu dəstəyini yalnız maliyyə dəstəyi kimi deyil, qanunvericiliklə bağlı islahatların və idarəetmənin yaxşılaşdırılması kimi iddialı bir proqramda məlumat mənbəyi kimi qəbul edir», AİB-nin Azərbaycan üzrə Direktoru Metyu Vestfol deyir. «Biz ən yaxşı beynəlxalq təcrübəyə əsaslanaraq yaxşı layihələrin hazırlanmasında, layihələrin daha şəffaf və səmərəli şəkildə həyata keçirilməsinə kömək edə bilərik».

Bu layihə əhalisinin ümumi sayı 700 000 olan altı rayonu əhatə edir. Layihənin keçdiyi ərazilərdə 87 000 qaçqın və məcburi köçkün məskunlaşmışdır və bu insanların ən adi xidmət və Dövlət və digər yardım təşkilatlarından gələn dəstəyi əldə etmək üçün yola ehtiyacları var.

Cənab Vestfol elavə edir ki, «Yolların və infrastrukturun təkmilləşdirilməsi nəqliyyat xərclərini azaldacaq, rayonlardakı istehsalçıların bazara çıxış imkanlarını gücləndirəcək, rayonlararası ticarətə şərait yaradacaq, iqtisadiyyatı və iş imkanlarını genişləndirəcək, sosial və icma inkişafına təkan verəcəkdir».

AİB qarışıq şəkildə iki kredit verəcəkdir: yolların bərpası və sərhəddə gediş gəlişin asanlaşdırılması üçün özünün bazara əsaslanan adi kapital ehtiyatlarından (AKE) 49 mln ABŞ dolları məbləğində kredit və təsisatların gücləndirilməsi üçün güzəştli Asiya İnkişaf Fondundan 3 mln ABŞ dolları məbləğində güzəştli kredit.

AKE-dan kredit 4 il güzəşt müddəti daxil olmaqla 24 il müddətinə və AİB-nın London Banklararası Birjasında təklif olunan dərəcəyə əsaslanan kredit mənbəyinə uyğun olaraq müəyyən edilən faiz dərəcəsi ilə verilir. Güzəştli kredit səkkiz il güzəşt müddəti daxil olmaqla 32 il müddətinə, güzəşt müddətində ildə 1.0 %, ondan sonra isə ildə 1.5% -lə verilir.

Yol Nəqliyyatına Xidmət Departamenti layihənin yolların təkmilləşdirilməsi və təsisatların gücləndirilməsi hissələrini, Dövlət Gömrük Komitəsi isə sərhəddə gediş-gəlişin asanlaşdırılması hissəsini icra edəcəkdir. Layihənin 2010-cu ildə başa çatdırılacaqdır.

AİB-nin Azərbaycanda həyata keçirdiyi layihə və proqramlar haqda məlumat almaq üçün http://www.adb.org/azrm saytına baxa bilərsiniz.

*****

Manilada yerləşən AİB Mərkəzi Asiya və Sakit okean ölkələrində əhalinin yoxsul təbəqələrinin maraqlarına yönələn sabit iqtisadi yüksəliş, sosial inkişaf və zəruri idarəetmə vasitələri ilə yoxsulluğun azaldılmasına yönəldilmişdir. 1966- cı ildə yaradılmış bu təşkilat 47-si bu regiondan olan 65 üzvdən ibarətdir. 2005-ci ildə AİB 6.95 milyard dəyərində kredit və qrant layihələrini və 198.8 milyon dəyərində texniki yardım təsdiq etmişdir.